Onlardan Birinci Avropa Oyunlarının açılış mərasiminə qatılmış 5612 nəfər könüllü bağlanış mərasimində də iştirak edəcək. 12247 nəfər əməliyyat könüllüsü isə Avropa Oyunları ilə bağlı digər tədbirlərə dəstək verir.

Bu ilin martından könüllülük hərəkatında SABAH-ın könüllüləri də yaxından iştirak edir.

"SABAH-ın könüllüsü" proqramı çərçivəsində Təhsil Nazirliyinin SABAH qruplarında təhsil alan könüllülərin "Bakı 2015" Birinci Avropa Oyunlarına dəstəyini nümayiş etdirmək məqsədilə interaktiv üslubda "SABAHFest" adlı festival keçirilib.

***"Bakı 2015" Birinci Avropa Oyunlarına SABAH qruplarında təhsil alan könüllülərin dəstəyini nümayiş etdirmək məqsədilə təşkil olunmuş "SABAHFest" adlı festivalın videoçarxını təqdim edirik:***